Martın 19-da təhsil nazirinin müavini, Nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə şuranın növbəti iclası keçirilib.

“Microsoft Teams” platforması üzərindən keçirilən iclasda Xocalı Rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi vəzifəsinə namizəd Qönçə Nurəddinovanın və Ucar Rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi vəzifəsinə namizəd Fizuli Ələsgərovun müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyaları üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb. 1 nəfərin şikayətinin təmin olunması, 1 nəfərin şikayətinin təmin edilməməsi barədə Şura tərəfindən qərar qəbul olunub.